# Kulturologiyanın bədii-estetik xarakteri və çağdaş tədqiqatları tarixindən

Hər şeydən öncə nəzərə çarpan budur ki, Rusiya kulturologiyası bədii yaradıcılığın təhlili kimi başa düşülən ənənəvi mədəniyyətşünaslıq meyllərinə baxmayaraq, daha çox Qərb kulturologiyası üçün səciyyəvi olan sosiologiya və biologiya təmayüllü elmlərə ciddi surətdə transformasiya etmişdir. Xarakterik haldır ki, kulturologiya tarixinə həsr olunan elmi əsərlərin, lüğətlərin, ensiklopediyaların müəllif kollektivinə nəzər saldıqda, burada sənətşünasların ən yaxşı halda azlıq təşkil etdiyini görmək olar. Bunu konkret misallarla aydınlaşdıraq. 1998-ci ildə Moskvada "Yuniti" nəşriyyat birliyi tərəfindən nəşr edilmiş sanballı, 576 səhifəlik "Kulturologiya. Dünya mədəniyyət tarixi" adlı kitaba nəzər salaq. Bu həmmüəllif əsəri professor A.N.Markovanın ümumi redaktəsi ilə işıq üzü görmüşdür [1]. Onunla birlikdə kitabın müəllif kollektivinə cəmi 15 nəfər daxildir. Onların içərisində bir nəfər iqtisad elmləri doktoru və bir nəfər də iqtisad elmləri namizədi var. 8 nəfər tarix elmləri namizədi, cəmi bir nəfər isə fəlsəfə elmləri doktorudur. Digər müəlliflərin elmi adı yoxdur. Göründüyü kimi, 15 nəfərlik müəllif kollektivi içərisində bir nəfər də olsun sənətşünasa təsadüf etmirik. Halbuki Azərbaycan elmində kulturologiya ilə mədəniyyətşünas və estetlərlə yanaşı, məhz sənətşünaslar məşğul olur. Sənətşünasların məhdud şəkildə iştirakı, müasir rus kulturologiyasının sovet quruluş tərzini qismən saxlamaqla Qərb kulturologiyasının elmi nomenklaturasından bəhrələndiyini açıq - aşkar ifadə edir.

Azərbaycan kulturologiyasında isə vəziyyət tamamilə başqa cürdür. Ənənəvi rus ictimai-siyasi və humanitar elmləri məcrasında inkişaf etməklə yanaşı, Azərbaycan mədəniyyətşünaslığı həm də müasir rus kulturologiyasından sonuncunun qəbul etdiyi Qərb modelinə hələ gəlib çatmaması ilə fərqlənir. Əlbəttə, müasir Azərbaycan elmində Rusiya modelli kulturoloji elmlər təsnifatının demək olar ki, bütün istiqamətlərində tədqiqatlar aparılır. Lakin Azərbaycanda bu fəaliyyətin kulturoloji xarakter daşıdığını dərk etmək çətindir. Xüsusilə sosial aspektə malik olan tədqiqatlar Azərbaycan mühitində kulturologiyanın predmetinə çevrilə bilmirlər. Bunu həm mədəniyyətşünasların, həm də sosiologiya, politologiya, ekologiya və s. sahələrdə nəzəri iş görən mütəxəssislərin dünyagörüşlərindən asanlıqla görmək olur. Ona görə də Azərbaycan elmində kulturologiya ilk növbədə bədii mədəniyyəti əhatə edir və bir sıra hallarda sırf "mədəniyyətşünaslıq" kimi qəbul edilir ki, burada da hərfi tərcümənin psixoloji təsiri güclüdür. Azərbaycan kulturoloqları üçün hələlik "mədəniyyət" və "bədii mədəniyyət" anlayışları arasındakı fərq o qədər də böyük deyil.

Məqsədyönlü şəkildə işlənib hazırlanmış və rəsmi qəbul edilmiş konsepsiyanın olmaması kulturologiyanın xaotik və qeyri-ardıcıl inkişafına səbəb olur. Doğrudur, bir sıra ali təhsil müəssisələrində, misal üçün Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kulturologiyanın ardıcıl sistemi işlənib hazırlanmışdır. Lakin bu sistem elmi deyil, tədris xarakteri daşıyır. Həm də bu sistemin elmi mahiyyəti respublikanın əlaqədar qurumları ilə vahid kontekstdə razılaşdırılmamışdır. Azərbaycanda isə hələlik belə bir razılaşma və vahid nomenklatura-təsnifat sistemi fəaliyyət göstərmir.

***Son dövrlərdə respublikamızın müvafiq elm mərkəzlərində kulturologiyanın təsnifatı, prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi sahəsində ardıcıl işlər görülür. Azərbaycan kulturoloji fikri çağdaş Qərb, Şərq, Rusiya kulturologiyası ilə müqayisə edilir, fərqli və oxşar cəhətlər araşdırılır.***

***Əlbəttə, Azərbaycan ictimai-humanitar elmləri ilə Rusiya elmi arasında ənənəvi olaraq bir bağlılıq, yaxınlıq vardır. Lakin bununla yanaşı, kulturoloji fikrimizin təkamül prosesində, xüsusilə elmi problemin şamil olunduğu sahələrdə həm Qərb, həm də rus kulturologiyası ilə müqayisədə ciddi fərqlər də yox deyildir.***

Respublikamızda mədəniyyətşünaslığın və onunla təmasda olan elmlərin, sahələrin öyrənilməsi ilə bir sıra elm və təhsil müəssisələri - Milli Elmlər Akademiyasının müvafiq institutları, Bakı Dövlət Universiteti, Azərbaycan Rəssamlıq Akademiyası, Dövlət İdarəetmə Akademiyası, Mədəniyyət və İncəsənət Universiteti məşğul olur. Bakı Dövlət Universitetinin müvafiq strukturlarında, xüsusilə fəlsəfə və mədəniyyətşünaslıq yönümlü kafedralarda bu istiqamətdə ardıcıl tədqiqat işləri aparılır. Professor Məmmədəli Zeynalovun 2000-ci ildə "Azərbaycan" nəşriyyatı tərəfindən nəşr edilmiş "Fəlsəfə tarixi" dərsliyində mədəniyyət fəlsəfəsinə, Şərqdə estetik və kulturoloji mahiyyət daşıyan görüşlərə xeyli yer ayrılmışdır. Tədqiqatçı haqlı olaraq qeyd etmişdir ki, qədim və orta əsrlər dövrü Azərbaycan mədəniyyəti və fəlsəfi-ictimai fikrinin bir çox inciləri hələ də tam şəkildə öyrənilməmiş, keçmiş rus sovet elmində, dərsliklərdə onların müdrik fəlsəfi-estetik məzmunu uzun müddət nəzərdən qaçırılmışdır.

Milli fəlsəfə tarixinə vaxtilə mərkəzdə etinasız münasibət göstərildiyini önə çəkən alim yazır: "Qədim Azərbaycanın zərdüştilik (Avesta) və Kitabi Dədə Qorqud fəlsəfəsi tamamilə nəzərdən qaçırılmışdır. Dərsliklərdə orta əsr Azərbaycan fəlsəfəsinin görkəmli nümayəndələri - Zəncani, Bakuvi, Bəhmənyar, Nizami, Sürhəvərdi, Tusi, M.Şəbüstəri, Nəimi, Füzuli, S.Təbrizi, S.Ə.Şirvani kimi korifeylərimizin fəlsəfəsi nəinki özünün layiqli yerini tuta bilməmiş, hətta bəzilərinin adı belə çəkilməmişdir" [2, s.26].

Azərbaycan kulturologiyasının əsas elmi-pedaqoji mərkəzlərindən biri də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) Kulturologiya fakültəsidir. Kulturoloji problemlər fakültəni təşkil edən beş kafedranın beşində də öyrənilir. Hər kafedra öz istiqaməti çərçivəsində kulturologiyanın bu və ya digər sahəsi ilə məşğul olur.

ADMİU-nun Kulturologiya fakültəsi kulturologiya problemləri ilə bağlı bir neçə dərslik nəşr etmişdir. Belə dərsliklərdən biri 2004-cü ildə nəşr edilmiş "Tətbiqi kulturologiya" adlı həmmüəllif kitabıdır. Burada müasir tətbiqi kulturologiyanın, həmçinin mədəniyyətşünaslıq və estetikanın bəzi sahələrini əks etdirən bir sıra mövzular öz əksini tapmışdır.

Kitabın müəllif kollektivinə kulturologiya ilə bu və ya digər çərçivədə məşğul olan elm və təhsil xadimləri daxildirlər. Dərslik professorlar Ə.Məmmədov, S.Dadaşova və dosent İ.Hüseynovun ümumi rəhbərliyi ilə müəllif qrupu tərəfindən hazırlanmışdır. Bu qrupa N.Əfəndiyeva, R.Ağayev, A.Əlizadə, S.Əmirxanov, M.Süleymanov və başqaları daxildir. Dərslik tətbiqi kulturologiya adlandırılsa da, burada mədəniyyətşünaslıq və estetikanın bəzi sahələrinə aid olan mövzular da nəzərdən keçirilir.

Kitabda nəzərə çarpan əsas müsbət keyfiyyətlərdən biri, onun ənənəvi mədəniyyət tarixi və nəzəriyyəsi mövqelərindən deyil, daha çox ictimai və sosial xarakter daşıyan mövqedən çıxış etməsidir. Doğrudur, kitabı bütünlüklə bu sahəyə aid etmək olmaz. Bədii mədəniyyətin öyrənilməsini kulturologiyanın əsas prioritet sahələrindən biri hesab etmək tendensiyası bu nəşrdən də yan ötməmişdir. Lakin nəşrin əsas qayəsini kulturologiyanın məhz tətbiqi xüsusiyyətləri təşkil etdiyindən burada ictimai-sosial mövqe güclüdür.

Bu cəhəti kitabdakı ayrı-ayrı mövzuların adlarından da hiss etmək olar. Hər şeydən öncə birinci fəsildəki "Tətbiqi kulturologiyanın predmeti və vəzifələri" bölməsi diqqətimizi cəlb edir. İ.Hüseynovun qələmindən çıxmış olan bu bölmədə kulturologiyanın predmet və vəzifələri ənənəvi postsovet üslubunda, ensiklopedik tərzdə şərh olunmuşdur ki, bu da Moskva, Sankt-Peterburq, Rostov nəşrlərinin təsiri ilə əlaqədardır. Digər tərəfdən belə yanaşma özünü doğruldur, çünki ümumi prinsiplərin izahında bizim rus, yaxud Qərb modelinə tutacağımız elə bir əsaslı irad yoxdur. Odur ki, tətbiqi kulturologiyanın (və ümumiyyətlə kulturologiyanın) predmeti və vəzifələrinin məhz adı çəkilən nəşrdə olduğu kimi qəbul edilməsi məqbul təsir bağışlayır.

Fərəhləndirici haldır ki, son illərdə kulturologiyada mədəniyyətşünaslarla yanaşı, filosofların, estetlərin, tarixçilərin, sosioloqların da rolu artır. A.Şükürovun, M.Zeynalovun, H.İmanovun, F.Məmmədovun, N.Ələkbərovanın və başqalarının bu sahədəki fəaliyyəti dediklərimizə misal ola bilər. Təbii ki, bu cəhət kulturologiyada sosioloji mahiyyətin xüsusi çəkisini artırmaqla, onu müasir standartlara yaxınlaşdırır.

İ.Hüseynov, N.Ələkbərova və bəzi digər tədqiqatçılar Azərbaycan kulturologiyasının sosial xarakterini izah edərkən, söylədiyimiz kimi rus modelindən də istifadə etmişlər. Bu cəhət rus modelininAzərbaycan elmi üçün əsas

rollardan birini ifa etdiyini göstərir. Biz də müasir Rusiya kulturoloji elmlərinin bu ölkədə qəbul edilmiş təsnifatını Azərbaycan elmi üçün bir model ola biləcəyini vurğulayırıq. Azərbaycan kulturoloqlarının model qurmaq sahəsindəki fəaliyyəti bu mülahizənin yararlı ola biləcəyini bir daha sübut edir. Bu baxımdan N.Ələkbərova və İ.Hüseynovun rus kulturologiyasının sosial xarakterinə istinad etmələri təbii təsir bağışlayır. Onlar yazır ki, "rus kulturoloqları sosial tədqiqatın təşkilinin dörd əsas mərhələdən ibarət olduğunu qeyd edirlər".[3, s.51]. Tədqiqatçılar daha sonra Rusiya elmi mənbələrindən istifadə etməklə bu mərhələləri açıb göstərir ki, bu da aşağıdakılardan ibarətdir:

- Tədqiqatın hazırlıq mərhələsi;
- İlin sosioloji məlumatlarının toplanması mərhələsi;
- Yığılmış məlumatların ümumiləşdirilməsi və onların elektron-hesablama maşınları vasitəsilə sistemləşdirilməsi;
- Sistemləşdirilmiş məlumatların təhlili, tədqiqatın yekunlarına əsaslanan hesabatın hazırlanması, nəticə və rəylərin formalaşdırılması [4, s.12].

N.Ələkbərova bu bölgüyə istinadı İ.Hüseynovla bir yerdə etmiş və onun tətbiqi xarakterini əsaslandırmışdır. Tədqiqatçılar kulturologiyanın sosial mahiyyətini ön plana çəkməklə, tədqiqatı tətbiqi məcraya yönəltmişlər. Ona görə də haqqında söz açdığımız elmi-tədqiqat işi sosial-tətbiqi xarakter daşıyır.

Azərbaycanda kulturologiya elminin inkişafında mənəvi dəyər və əxlaq kateqoriyalarının, onların elmi təhlil və izahının böyük rolu olmuşdur. Adətən əxlaqi-etik keyfiyyətlər kulturologiya ilə fəlsəfənin qovşağında yerləşdiyindən, onları hər iki elm sahəsi tədqiq edir. Son dövrlərdə isə əxlaqi-etik münasibətlərin mühüm tərkib hissəsi olan milli adət və ənənələrin öyrənilməsi daha çox mədəniyyətşünaslığın payına düşür. Bu baxımdan onun estetika və etika kimi fəlsəfə yönümlü elm sahələri ilə iş birliyi qurması təqdirəlayiq hadisədir.

Azərbaycanda mədəniyyətşünaslığın elm kimi formalaşmağa başladığı dövrdən etibarən mənəvi dəyərlər və milli adət-ənənələr geniş tədqiqat obyektinə çevrilmişlər. Bu baxımdan professor Ə.Məmmədovun elmi fəaliyyəti diqqətimizi cəlb edir. Müasir kulturologiyada Ə.Məmmədov daha çox milli adət və ənənələrin tədqiqatçısı kimi tanınır. Haqqında söz açdığımız "Tətbiqi kulturologiya" dərsliyində Ə.Məmmədovun bu mövzuda (və digər mövzularda) yazılarına rast gətirik. Ə.Məmmədov mədəniyyətşünaslıqda milli adət və ənənələrin rolu, onların mənəvi-əxlaqi dəyərlər sistemindəki mövqeyi barəsində bir sıra kitab və dərsliklərin, metodiki vəsaitlərin və dərs proqramlarının müəllifidir.

"Milli adət və ənənələr mənəvi dəyərlərimizin zəmini kimi" publikasiyasında Ə.Məmmədov bu geniş mövzunun nisbətən kiçik ölçülü (təxminən 23 səhifəlik) icmalını dərs vəsaiti kimi təqdim etmişdir. Ona görə də pedaqoji amil Ə.Məmmədovun kulturoloji tədqiqatlarında bu və ya digər dərəcədə özünü göstərir. Tədqiqatçı yazır: "Əxlaq, estetik və mənəvi tərbiyə kompleks tərbiyə işinin ayrılmaz hissəsidir. Bu sosial - pedaqoji işin forma və metodları rəngarəng və çoxsahəlidir. Hazırda mədəniyyət müəssisələrində, məktəblərdə yeniyetmələrin, gənclərin mənəvi-estetik tərbiyəsində müxtəlif iş formalarından istifadə olunur" [3, s.78].

Ə.Məmmədovun milli-mənəvi dəyərlər sistemi bir neçə əsas mənbədən qidalanır. Bu mənbələrə milli adət və ənənələr, məişət, geyim, ünsiyyət, davranış, folklor və s. aiddir. Sonuncusu Ə.Məmmədovun tədqiqatlarında daha geniş təmsil olunmuşdur. Ə.Məmmədovun fikrincə, folklor mühüm tərbiyəvi əhəmiyyətə malik olmaqla gənclərin mənəvi-əxlaqi və pedaqoji cəhətdən formalaşmasında, istiqamətlənməsində mühüm rol oynayır. Ona görə də Ə.Məmmədov estetik-kulturoloji tədqiqatların mühüm tərkib hissəsi kimi folklora tez-tez müraciət edir.

Azərbaycan folkloru yüksək bədii-estetik, əxlaqi və mənəvi keyfiyyətlərə malikdir. Davranış, ünsiyyət və digər ictimai-etik kateqoriyaları əsaslandırarkən, Ə.Məmmədov peşəkarlıqla bu və ya digər folklor nümunəsindən özünə lazım olan hissəni axtarıb tapır. Bununla da Ə.Məmmədov və digər araşdırıcılar folklorşünaslıqda yeni bir istiqamətin - folklora mədəniyyətşünaslıq nöqteyi-nəzərincə, tərzincə yanaşma istiqamətinin əsasını qoymuş olur. Əlbəttə folklorda mənəvi, əxlaqi, tərbiyəvi və digər motivlərin işıqlandırılması yeni hal deyildir. Lakin son dövrlərdə kulturoloqlar kompleks yanaşma metodu tətbiq etməklə prinsipcə yeni metoda malik olmuşlar. Onların folklora münasibəti həm filologiya, həm də pedaqogikanın folklora olan münasibətindən xeyli fərqlənir. Kulturoloji yanaşma metodu filologiya, pedaqogika və digər elmlərin folklor sahəsindəki universal və əhəmiyyətli məqamlarını mədəniyyətşünaslıq müstəvisində inkişaf etdirməklə folklorun mədəniyyət fəlsəfəsinin tədqiqat obyektinə çevrilməsinin mümkünlüyünü elmi cəhətdən isbat etmişdir.

Ə.Məmmədov və digər tədqiqatçılar elmi fəaliyyət, tədris və tərbiyə prosesində folklorun bütün janrlarından istifadə edirlər. Buraya qəhrəmanlıq və məhəbbət dastanları, nağıllar, aşıq şeri, müxtəlif şifahi xalq ədəbiyyatı nümunələri - zərb-məsəllər, atalar sözləri, bayatılar, sayaçı sözləri, yanıltmaclar və s. daxildir. Bütün bunlar həm də kulturoloji mahiyyət daşıyır, pedaqogika ilə birləşərək müasir şəxsiyyətin, xüsusilə gənc nəslin şüurunun humanistləşməsinə, onun mədəni dünyagörüşünün artmasına yardım edir. Folklor gənc nəslə qəhrəmanlıq, nəciblik, insana məhəbbət, dostluq kimi müsbət keyfiyyətlər aşılayır. Folklorun ayrı-ayrı bölmələrindən mədəniyyət yönümlü təhsilin peşəkarlığını artırmaq məqsədilə də istifadə olunur. Bayatılar, sayaçı sözləri, atalar sözləri, yanıltmaclar, tapmacalar və s. aktyor sənəti ixtisasında, bəzi digər ixtisaslarda mühüm vasitə kimi istifadə olunur. Yanıltmaclar nitq mədəniyyətinin, səhnə danışığının, diksiyanın təkmilləşməsinə, fonetik qüsurların aradan qaldırılmasına və s. kömək edir. Folklorun pedaqoji prosesdə mühüm rolunu nəzərə alan Ə.Məmmədov yazır: "Qabaqcıl məktəblər, mədəniyyət müəssisələrində folklorun göstərilən mənəvi-estetik məziyyətlərini nəzərə almaq, müzakirəsi keçirilən bədii əsərləri yeri gəldikcə müvafiq atalar sözləri ilə



yekunlaşdırmaq, mövzuların təhlilində, ictimai-siyasi hadisələr qiymətləndirildikdə xalqın fikrini, istək və arzularını ifadə edən hikmətamiz sözlərdən istifadə olunması məqsədəuyğundur. Nəticədə yeniyetmələrdə vətənpərvərlik, əməksevərlik kimi əxlaqi keyfiyyətlərlə bərabər nitq mədəniyyəti, fikri, danışığı atalar sözləri və məsəllərlə tamamlamaq vərdişi tərbiyə olunur" [3,s.79].

Dastan janrının mənəvi-əxlaqi və tərbiyəvi rolundan söz açan tədqiqatçı qəhrəmanlıq dastanlarının əhəmiyyətinin daha artıq olduğunu vurğulayır, "Koroğlu" və digər qəhrəmanlıq dastanlarının rolunu yüksək qiymətləndirir: "Koroğlu" dastanında əxlaqın... inandırma, alışdırma üsullarını aydın görür, xalq müdrikliyinə inamımız daha da artır, ondan bəhrələnirik" [3,s.79].

Nəzərdən keçirdiyimiz yazıda professor Ə.Məmmədovun toxunduğu prioritet məsələ gənc nəslin tərbiyəsi məsələsidir. Ə.Məmmədov kulturologiyada pedaqoji cəhətlərin yüksək inteqrasiyasının tərəfdarıdır. Çünki kulturoloji tədris işi ümumiyyətlə pedaqoji proseslə sıx əlaqədardır. Ona görə də gənc nəslin təlim-tərbiyəsi onun məşğul olduğu əsas problem sahələrdən biridir. Bu işdə müasirliyin də böyük rolu vardır. Düzgün istiqamətləndirilməmiş müasirlik ənənələri tərbiyə prosesində bəzən əks nəticə verə bilər. Məsələyə mədəniyyətşünaslıq aspektindən yanaşan mütəxəssislər, o cümlədən Ə.Məmmədov bu işdə mədəni-əyləncəli proqramların, mədəni-kütləvi tədbirlərin və s.-nin rolunun böyük olduğunu vurğulayır. Bu tədbirlərin mütəmadi olaraq keçirilməsi, onların düşünülmüş, maraqlı, zövqləri oxşayan şəkildə tərtib edilməsi mədəniyyətşünaslıq problemləri ilə təhsil və təlim-tərbiyə problemlərinin müvəffəqiyyətli şəkildə uzlaşdırılmasına sübut ola bilər. Professor Ə.Məmmədov müasir dövrdə belə uzlaşdırılmaların sayının xeyli artdığını göstərməklə bərabər, bu işdə müəyyən nöqsanların, çatışmamazlıqların olduğunu da inkar etmir. Təbii ki, gənclərin təlim-tərbiyəsi işində mədəniyyət və təhsil müəssisələrinin rolu daha vacibdir.

Mədəniyyətşünasların son illərdə məşğul olduğu başqa bir mövzu bədii xalq yaradıcılığının tarixi qaynaqları və müasirlik problemidir. Bir sıra tədqiqatçılar bu universal problemə ənənəvi mədəni-tərbiyəvi mövqedən yanaşırlar. Bu baxımdan R.Ağayev və A.Əlizadənin rolunu xüsusi qeyd etmək lazımdır. Bu mütəxəssislərin həmin problemə maraq göstərməsi təsadüfi deyil. Onlar Azərbaycan kulturologiyasında milli-mənəvi dəyərlər sisteminin və xalq yaradıcılığının rolunun əhəmiyyətini təlim prosesində elmi cəhətdən əsaslandıran mütəxəssislərdir. Tədqiqatçıların yazdığı kimi, bu işdə folklorun əhəmiyyəti böyükdür, ona görə də bədii xalq yaradıcılığının tarixi və bu tarixin müasir dövrdə öyrənilməsi, ondan istifadə edilməsi kulturologiya, pedaqogika, estetika kimi elmlərin diqqət mərkəzindədir.

Nəzərdən keçirilən problemdə aşıq şeri xüsusilə böyük əhəmiyyətə malikdir. Ona görə ki o, janr və mövzu etibarilə çoxşaxəli olub, şifahi xalq yaradıcılığının bir çox sahələrini özündə əks etdirir. Xarakterik haldır ki, tədqiqatçılar aşıq ədəbiyyatının sırf filoloji keyfiyyətlərinə də diqqət yetirmiş, onları nəzərdən qaçırmamışlar. A.Əlizadə və R.Ağayevin yazdığı aşağıdakı nümunəyə diqqət yetirək: "Bu gün ulu aşıq poeziyasını araşdırarkən orada dövrlə, zamanla, üslub və poetik söz seçmə ilə bağlı qəliz ifadələrə də rast gəlmək olur. Məsələn, aşıq Ələsgər "Murği ruhum getməz səndən irağa" misrasındakı "murğ" sözünü ifadənin gözəlliyini artırmaq üçün işlətmişdir. "Murğ" farsca quş mənasında işlədilir. Əgər şerdə "murğ" əvəzvinə "quş" sözü işlədilsəydi, gülünc bir ifadə alınmış olardı" [3, s.101].

Xarakterik haldır ki, istər A.Əlizadə, istərsə də R.Ağayev xalq yaradıcılığının tarixi qaynaqlarını və xalq yaradıcılığının müasir dövrdə inkişaf etdirilməsini kulturoloji prizmadan artıq uzun illərdir ki, tədqiq edirlər. Onların həm ayrıca, həm də həmmüəllif kimi nəşr etdikləri bir sıra elmi işlərdə xalq yaradıcılığı və onun yüksək mənəvi-əxlaqi əhəmiyyəti, bədii irsin öyrənilməsi və digər mövzular işıqlandırılır. Belə işlərə nümunə olaraq R.Ağayevin "Azərbaycan xalq yaradıcılığı", "Azərbaycanın beynəlxalq mədəni əlaqələri" kitablarını, A.Əlizadənin "Milli mədəniyyətdə tarixilik", onların ikisinin birgə yazdığı "Bədii xalq yaradıcılığında tarixilik və varislik" və başqalarını göstərmək olar. Sonuncuda nəzərdən keçirilən problem, yəni bədii xalq yaradıcılığının tarixi qaynaqları və müasirlik problemi daha qabarıq ifadə olunmuşdur. Burada kulturologiyanın bilavasitə bədii mədəniyyətlə əlaqədar olan sahələri geniş bədii-estetik müstəvidə təhlil edilməklə yanaşı, həm də müəyyən pedaqoji yük daşıyır [5, s.16-21, 27-29]. Çünki bu əsər həm də tədris vasitəsi kimi düşünülmüşdür.

Kulturologiyanın tətbiqi və tarixi problemləri ilə birlikdə, onun nəzəri məsələlri də az maraq doğurmur. Nəzəri məsələlər həm konkret bir mövzunu, həm də kulturologiyanı ümumi formada əhatə edir. Bu baxımdan A.Şükürov, R.Abdullayeva, N.Mehdi, F.Məmmədov və başqalarının nəzəri görüşləri dediklərimizə misal ola bilər.

F.Məmmədovun elmi irsi Azərbaycan kulturologiyasının təsnifatlaşdırılmasına, onun forma və mövzuca zənginləşməsinə xidmət edir. F.Məmmədov kulturologiyanın elmi təsnifatını verən, onun problematikasını, elmi predmetini, fəaliyyət sahələrini müəyyənləşdirən ilk alimlərimizdən biridir. F.Məmmədovun kulturologiyaya olan münasibəti həm də onunla seçilir ki, alim ənənəvi bədii mədəniyyət amilini kulturologiyanın "aparıcı" sahəsi deyil, onun məşğul olduğu sıravi sahələrdən biri hesab edir. F.Məmmədovun pozisiyasının bu şəkildə formalaşmasında onun kulturologiyaya incəsənət, pedaqogika yaxud sənətşünaslıqdan deyil (R.Ağayev, Ə.Məmmədov və başqaları kimi), tarix yönümlü elmlərdən gəlməsi heç də az rol oynamamışdır. Onun kulturoloji konsepsiyası müasir Qərb və ya Qərb yönümlü rus kulturologiyası kimi sosial əsasa söykənir. Bununla belə, F.Məmmədov kulturoloji fikirlərinin əsas ideoloji xətti sosial mədəniyyət və sosial mühitin dialektikası kimi paradiqmalara istinad etməklə antropoloji, yaxud bioloji motivlərdən uzaqdır. Beləliklə, F.Məmmədovun kulturoloji fikri mövqe etibarilə müasir kulturologiyada təsbit olunmuş sosioloji amilə yaxınlığı ilə seçilir. Bu

baxımdan onu bəzi digər tədqiqatçılarla yanaşı,misal üçün N.Ələkbərova ilə yanaşı Azərbaycan kulturoloji fikrinin avanqard dəstəsinə mənsub olduğunu təsdiq etmək olar. Lakin antropoloji, yaxud bioloji indeksdən nisbətən uzaq olması F.Məmmədovun görüşləri ilə klassik Qərb kulturologiyası arasında müəyyən bir fərq yaradır. Bu bir tərəfdən F.Məmmədovun konkret təfəkkür tərzi, onun baxışları ilə izah edilirsə, digər tərəfdən "antropoloji" başlanğıcın kulturologiyanın "bu günü" deyil, "dünəni" olması ilə izah edilir.

F.Məmmədovun kulturologiyası xeyli universal mahiyyətə malik olmaqla, cəmiyyətin və dövlətçiliyin idarə edilməsində nəzəri əsas kimi istifadə oluna bilər. Tədqiqatçı bu və ya digər mövzuda 200-dən artıq müxtəlif elmi və elmi-kütləvi əsərlərlə çıxış etmişdir ki, onların da əksəriyyəti sosial inkişaf və modernləşmə problemlərini əhatə edir.

F.Məmmədov kulturologiyada əsasən nəzəri müddəaları inkişaf etdirməklə, Azərbaycan elmini yeni-yeni görüşlərlə zənginləşdirir. Əlbəttə, biz F.Məmmədovun kulturologiya tarixi ilə məşğul olmadığını söyləyə bilmərik, lakin bu mövcud tarixi biliklərə nəzər salmaqdan başqa bir şey deyil. Əgər Ə.Məmmədov, A.Əlizadə və başqaları daha çox mədəniyyət tarixi, N.Ələkbərova, İ.Hüseynov və başqaları tətbiqi-praktiki məsələlərlə məşğul olursa, F.Məmmədov problemi sosial-nəzəri istiqamətdə inkişaf etdirir.

F.Məmmədovun 2002-ci ildə nəşr edilmiş "Kulturologiya. Nəzəriyyə və tarix məsələləri" adlı kitabı alimin bu sahədə nəşr etdirdiyi mükəmməl tədqiqat işlərindən biridir. Burada tədqiqatçının nəzəri görüşlərini əks etdirən məqalələr, onun mühazirə və çıxışları, layihələri, həmçinin kulturologiya tarixinə aid ayrı-ayrı materiallar toplanmışdır.

Monoqrafiyanın birinci fəslində müəllif digər Azərbaycan alimləri kimi kulturologiya anlayışının xeyli əhatəli olan şərhini vermişdir. Bu bölməyə sırf faktik-ensiklopedik materiallar daxildir ki, tədqiqatçı bunları ayrı-ayrı mənbələrdən götürərək vahid struktur formasında birləşdirmişdir.

Bir çox digər tədqiqatçılar kimi (misal üçün S.Y.Levit kimi) F.Məmmədov da kulturologiya anlayışının formalaşmasını Lesli Alvin Uaytın adı ilə bağlayır və onun kulturantropoloq olmasını xatırlatmaqla, kulturologiyanın antropoloji xarakterini qeyd edir. F.Məmmədov L.Uaytin kulturologiyanı üç qrupa böldüyünü (texnoloji, sosial və ideoloji) qeyd edir və göstərir ki, o bunlardan birincisinə, yəni texnoloji sistemə üstünlük vermişdir.

F.Məmmədov keçmiş SSRİ-də kulturologiya elminin meydana gəlməsini XX əsrin 60-cı illərinə şamil edir. Alimin qənaətincə, həmin dövrdə kulturologiya "adı çəkilməyən formada" sovet elmində artıq mövcud idi. Lakin Qərbdə formalaşdığına görə o, uzun müddət sovet elmi üçün "yabançı" xarakter daşımış və özünü təsdiq edə bilməmişdir [6, s.39]. Ona görə də, kulturologiyanın inkişafı yalnız postsovet dövrü demokratik (ifadə F.Məmmədova məxsusdur - A.Z.) cəmiyyətlərində mümkün olmuşdur. Beləliklə, F.Məmmədovun fikrincə, keçmiş sovet elmində və onun tərkib hissəsi olan Azərbaycan elmində kulturoloji rüşeym ictimai-humanitar elmlər şəbəkəsində təxminən 40 il bundan əvvəl meydana gəlmiş və yalnız son 10-15 ildə əhəmiyyətli inkişaf dövrünə qədəm qoymuşdur. Bu konsepsiya Azərbaycan kulturologiyası tarixi üçün məqbul sayıla bilər. Lakin rüşeym halında kulturologiyanın ayrı-ayrı problemləri ilə, zənnimizcə daha əvvəldən məşğul olunmuşdur. Azərbaycan elmində hələ 30-40-cı illərdə müəyyən ciddi nəzəriyyələr irəli sürülmüşdü ki, bu da müxtəlif mədəni-kütləvi tədbirlərin, misal üçün o zamankı SSRİ-də Nizaminin yubileyinin keçirilməsi ilə (1947-ci ildə) bağlı idi. Həmin dövrdə V.M.Zummer, M.Rəfili, C.Xəndan, A.Qazıyev və bəzi digər müəlliflərin tədqiqatlarında estetik-maarifçi dəst-xətt xeyli güclü idi ki, bunu da lazım gələrsə "adı çəkilməyən" kulturologiya hesab etmək olar.

F.Məmmədov kulturologiyanın 60-cı illərdə meydana gəlməsini Stalin dövründən sonra keçmiş sovet cəmiyyətində nisbi "demokratik" ab-havanın bərqərar olması ilə əlaqələndirir. Şərti olaraq bununla razılaşmaq mümkündür, çünki bu demokratik ab-hava sovet kulturologiyasının özünü təsdiq etməsində bir tarixi mərhələ olmuşdur. Lakin kulturologiyanın formalaşmasını qəti olaraq 60-cı illərlə əlaqələndirmək tam düzgün olmazdı. Ən azından ona görə ki, əgər o həmin dövrdə az-çox dayanıqlı elmi təlim olsaydı (keçmiş SSRİ-də), adına ensiklopediyalarda təsadüf olunardı. Lakin 80-ci illərin sonuna qədər sovet nəşrlərində (bəzi istisnalarla) biz kulturologiya istilahına təsadüf etmirik. Əgər kulturologiyanın müasir inkişaf mərhələsinin son 10-15 ilə təsadüf etməsi fikri hamını qane edirsə, onun meydana gəlməsinin "alt sərhədini" dürüst çəkmək məsələsində hələ də ciddi fikir ayrılığı mövcuddur.

**Aludə ZEYNALOVA,**
***sənətşünaslıq namizədi***

Ədəbiyyat

1. Культурология. История мировой культуры. Москва, 1998
2. Zeynalov M. Fəlsəfə tarixi. Bakı, 2000
3. Tətbiqi kulturologiya (dərslik) Bakı, 2004
4. Как провести социологическое исследование.Москва, 1990
5. Ağayev R., Əlizadə A. Bədii xalq yaradıcılığında tarixilik və varislik, Bakı, 2003
6. Ф.Мамедов. Культурология. Вопросы теории и истории. Баку, 2002